

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# GÖRÜŞÜNƏ TƏLƏSDİKLƏRİM...

## Doymadığım səfərin təəssüratları

**Axşam naharından sonra camiyə gəldik. Artıq burada köhnə dostların əksəriyyəti çay içə-içə söhbətləşir, bir-birlərindən, həyatlarından xəbər tuturdular. Yeri gəlmişkən, bir məqamı xüsusi qeyd etməliyəm. Trabzonda olarkən bir elanın camilərdən xüsusi diqtə və avazla edildiyini dəfələrlə müşahidə etmişdim. Və bu da mənə keçmiş zamanlarda Azərbaycan kəndlərində də çaparların olmasını xatırlatmışdı.**

Doğrudur, biz bunu türk filmlərində də görmüşük. Dumbul çalanlar məhəllə-məhəllə gəzib sultanın fərmanını əhaliyə atdırırdı. Bizdə isə adətən toy xəbərlərini bir növü dəvət kimi çaparlar ev-ev gəzib bildirərdilər. Burada isə dünyasını dəyişən oldusa, onu camidə elan edirlər. Adını, soyadını, mərasimin yerini mütləq vurğulayırlar. İkinci müşahidə etdiyim məqam isə bu adamların özləri özlərində ovqat yaratmalarıdır. Onlar ən adi bir detaldan istifadə etməklə şənlənməyi bacarırlar. Məsələn, dul qalmış yaşlı bir kişinin könlünü xoş etmək üçün hərə bir sözlə onu söhbətə çəkir. Kimi dul qaynanasını təklif edir, kimi xalasını, kimi hansısa kənddə yaşayan başsız bir qadını, hətta məni də söhbətə qatıb dəfələrlə rica edirlər ki, qəzetində bir elan ver ki, filan yaşlı, malı-mülkü, evi, parası, sığortası, təqaüdü olan bir kişi bekarsı. Yəni duldu. Ona uyğun zövcə axtarırıq!

Bax, bu da adamların qaramatdan çıxmaq, yorğunluğu rahatsızlığı, sıxıntını özündən qovmaq üçün edilən təşəb-



büslərdi. Zənnimcə, bunun bir damarı da bu insanların bir-birinə dayaq durmasından, həmrəy olmasından qaynaqlanır. Bəli, artıq axşamdan Əhməd qardaşım doktorumla telefon bağlantısı qurmuşdu. Sabah professor Mustafa Gökçənin "anju və əməliyyat" günü olsa da, o məni ertədən qəbul etməyə söz verdi . Biz səhər saat 9-da artıq xəstəxanada idik. Adətən həftənin bir günü yalnız anju və əməliyyatla məşğul olan Mustafa hoca söylədiyi vaxtda məni qəbul etdi. Oxucularıma xatırlatmaq istəyirəm ki, həmişə üzündə təbəssüm gördüyüm və bir kəlməsilə adamda müsbət aura yaradan Mustafa Gökçə son dərəcə coşqulu, qaynar bir adamdı. Mən bir dəfə də olsun hətta onun yorğun halında belə xəstəni şən ovqatla, təbəssümlə qarşılamdığını görməmişəm. Dəhlizdə addımlayarkən nə qədər qayğılı olsa da, hər kəslə salamlaşıb halını soruşur. Otağında isə tamam fərqli, nurlu bir adama çevrilir. Ona görə də şəxsən mənimlə görüşlərində onun təkcə həkim-xəstə yox, həm də həkimin, ziyalının başqa bir söz adamıyla doğma münasibətinin şahidi oluram. O, böyük saygı və sevgiylə hal-əhval tutur. Elə narazılığını da o cür bildirir . Bu dəfə də müayinələr təyin etdi. Günün sonunda həmin müayinələrin nəticələrin ilə bərabər məni yenidən qəbul edib təbəssümlü, amma kəskin bir şəkildə təyinatlara əməl etməyi, göstərişlərə əməl etməyi tələb etdi. Və vurğuladı ki, doktorun təyinatları mütləq yerinə yetirilməlidir ki, digər fəsadlar ortaya çıxmasın. Mən bu haqlı iradın qarşısında sadəcə susdum. Və indi də düşünürəm ki, doktorum həqiqətən çox haqlıdır, amma mənim də özəl yaşantılarım öz işini görməkdədir.

Trabzonda bir gündə həkimlərin qəbuluna düşmək Əhməd qardaşımın yaxın qohumu Hüseyn doktorun köməyi



olmadan mümkün deyil. Bu insan mənim hər səfərimdə az qala xəstələrini "unudub" qısa bir zamanda hər kəslə bağlantı qurur.

Özü şəxsən mənim üçün yazılmış müayinələrin olacağı kabinetlərin qapısını döyür. Onlardan məni nahar fasilələrində, işdən sonra, bəzən də növbədənkənar qəbul etmələrini rica edir. Məhz Hüseynin sayəsində Trabzonda vaxt itkisindən, yəni xəstəxana dəhlizlərində gözləmələrdən azad ola bilirəm. Bu dəfə də o yardımını məndən əsirgəmədi. Allah köməyi olsun!

Ertəsi gün səhər yeməyindən sonra Əhməd qardaşım kəndə getməyi təklif etdi. O istiqamətdə heç olmamışdım. Məmnuniyyətlə razılaşdım. Yalnız yolda bildim ki, Əhmədin uşaqlıq dostlarından birinin atası rəhmətə gedib. Onun dəfnində iştirak etmək istəyir. Biz kəndə yaxınlaşdıqca xəyal məni Ağdərəyə, Kəlbəcərə, Laçına, Şuşaya, Tuğa aparırdı. Kəndin adı da qəribə idi:

- ATASU!



İnanin ki, kəndin içərisinə daxil olanda özümü saxlaya bilmədim. Əhməddən rica etdim ki, maşını durdursun. O, belə də etdi. Düşüb piyada kəndi dolaşmağa başladım. Bir yerdə ağlamaqdan özümü tuta bilmədim. Kəndimizin mənzərəsi idi. Döşəndim yaşı otların üstünə. Yalnız sonra Əhməd Varolun məni kənardan izləyə-izləyə çəkdiyi şəkillərə baxanda hansı durumda olduğumu təkrar anladım. Elə Atasu kəndində yazmışdım ki:

**Suyu damla-damla dumandan əmən
Dağlar da həməndi, dumanda həmən...
Ümiddən öncəki gümandan əmən -
Yerlərə baxıram gözüm sevinir...**

**Dolaşır neçə cür fikir başımda
Canlanır içimdə dağım daşım da!
Qardaş məmləkətdə bax, bu yaşımda -
Qaralmaq istəyən közüm sevinir...**

**Ruhum qanadlanır, qəlbim atlanır
Önümdə dərd çökür, kədər qatlanır!
Canım təpərlənir və inadlanır -
Ayaqda saxlayan dözüm sevinir...**

**Bənzəyir bu yerlər nur pətəyinə
Yetişər uzatsan əl ətəyinə...
Bir anlıq dur! - deyib qəm tütəyinə -
İstədim bağıram - sözüm sevinir...**

**Nə xoşdu ziyarət fikir bölənə
Zikr bacarana, zikr bölənə...
Əlimi açmışam - Şükür! bölənə -
Əbülfət qədər də özüm sevinir...**



Bəli, Atasu kəndində bütün həyatımı təkrar yaşadım... bütün uşaqlığımı, gəncliyimi anbaan kino lenti kimi izlədim... Və bu kəndin adamlarının da nə qədər halal, mehriban olduqlarını görəndən sonra kəndə ad qoyanın atasına içimdən bir rəhmət duası keçdi. Çünki kəndin qarşı tərəfindən özünü dağdan atan şəlaləyə baxıb, dərə boyu axan çayı izləyib və nəhayət, hər evin həyətinə çəkilmiş su xətlərini, eləcə də yol kənarında olan bulaqları seyr etməmək, ataya və suya ehtiram göstərməmək məncə günah olardı. Biz dəfndən sonra yol boyu xeyli susduq. Əhməd Varol məni xatirələrin əlindən almaq üçün özünəməxsus şəkildə bir təklif etdi:

- Abi, bəlkə səni türk saunasına aparım. Yorğunluğumuz çıxsın - dedi. Etiraz etmədim. Bir neçə dəfə qeyri-adi təklifləri ilə məndə maraq yaradan qardaşımın bu təklifini dərhal qəbul etdim. Çünki bu mənim də ürəyimdən keçmişdi və öncəki səfərlərimdə türk hamamının ləzzətini görmüşdüm.

**Türk hamamı
tarix yaşlı
sal qaya daşlı
səkkiz dirəkli...
əjdaha biləkli
türk kisəçi
türk əlləriylə
ovur vücudumu
elə ovur ki
gözlərimdən
yaş sıçrayır,
canımdan ağrı...
türk kisəçi
türk əlləriylə
sanki
bir möcüzə edir
durulayır
içimdə tükənmiş
yaşamaq umudumu...**

(ardı növbəti sayımızda)